Ermənilər və Azərbaycan türkləri

(əvvəli 23 avqust tarixli sayımızda)

Məlum olduğu kimi, Qarabağın dağlıq hissəsi ən qədim zamanlardan nəinki Azərbaycanın ayrılmaz tərkib hissəsi, həm də onun mərkəzi əyalətlərindən biri olmuşdur. Qədim və erkən orta əsrlərdə Dağlıq Qarabağın ərazisi qədim Azərbaycan dövləti olan Qafqaz Albaniyasının tərkibinə daxil idi. Bu ərazi tarixən öz füsunkar gözəlliyi ilə digər vilayətlərdən seçilirdi. Azərbaycanda olan 9 iqlim qurşağından 6-sına Qarabağda rast gəlmək olar. Qarabağ ərazisində 30-dan çox müxtəlif tutumlu çay və 20 göl vardı. Bütün bu məziyyətlərinə görə, bu bölgə həmişə Azərbaycan hökmdarlarının diqqət mərkəzində olmuşdur.

Qarabağın dağlıq hissəsinin tarixi Azərbaycan torpaqları olmasını erməni tarixçisi Ter-Qriqoryan da haqlı olaraq təsdiq edirdi. Bu erməni alimi Arsaq vilayətini təsvir edərək yazırdı ki, "Dağlıq Qarabağ qədim zamanlardan daha geniş Arsaq əyalətinin bir hissəsi idi. Arsaq isə Azərbaycan əyalətlərindən biri olan - Albaniyanın bir hissəsidir".

V əsr müəllifi Movses Xorenatsi və VII-VIII əsrlərdə yaşamış Musa Kalankatlı Albaniyanın I əsrdəki sərhədləri haqqında yazırdılar ki, onun cənub sərhəddi Araz çayı boyunca keçir.

I-III əsrlərdə isə, gürcü müəllifi Melikişvilinin yazdığına görə, "Albaniya hər cəhətcə öz qonşularından güclü idi".

Orta əsrlərin sonu və yeni dövrdə indiki Ermənistan ərazisində əhəmiyyətsiz miqdarda erməni olmuşdur. Bu zamanlardan başlayaraq azərbaycanlı türklər ilə ermənilər arasında yaxın ünsiyyətlər yaranmışdı. Lakin bu münasibətlər azərbaycanlıların ermənilərə humanist yanaşmalarından başqa bir şey deyildi. Qədim Oğuz elini (indiki Ermənistanı) gəzmiş avropalı səyyah və tədqiqatçılardan fransız J.B. Taverniye (1655), J.Şarden (1673), italiyalı Cemelli (1694), ingilis Moriyen (1813), Ger Perter (1817), Dübua de Monpero (1848), P.Kameron, Linç, M.Vaqner burada azərbaycanlıların çoxluq təşkil etdiyini göstərmişlər. Bu müəlliflər İrəvanda yaşayanları səhvən "farslar", "müsəlmanlar" adlandırmışlar.

Qeyd etmək lazımdır ki, İrəvan əyalətinin və xanlığının mövcud olduğu 1410-1827-ci illərdə bir dəfə də olsun erməni mənşəli şəxs İrəvan xanı olmayıb. Bu xanlığı idarə edən şəxslərin siyahısını tərtib edən erməni müəllifi Hovannes Şahxatunan göstərirdi ki, 49 İrəvan xanının hamısı azərbaycanlı olmuşdur. Erməni Sovet Ensiklopediyasında bir daha təsdiq edilir ki, "1400-1827-ci ilədək İrəvanda hökmdarların hamısı azərbaycanlı türk olmuşlar.

Ermənilərin Qafqaza köçürülməsindən sonra onların yerli əhali - azərbaycanlılarla münasibətlərində gərginlik səngimək bilmirdi. Çünki ermənilərin Qafqaza köçürülməsi prosesi çarizmin müstəmləkə siyasətinin bir hissəsi idi və Rusiyanın ucqarlarını xarici müdaxilələrdən qorumaq üçün xristian əhalidən ibarət etibarlı dayaq yaradılmasını nəzərdə tuturdu.

1828-ci il fevralın 26-da Qarabağ bölgəsi erməni mühacirətinin əsas istiqamətinə çevrildi. Rus müəllifi Qlinka yazırdı ki, "yeni istila olunmuş vilayətlərə xalqın (yəni ermənilərin-A.M.) axını oralarda çörəyin çatışmamasına səbəb oldu. Bu zaman erməni Lazarev belə bir sərəncam aldı ki, köçkünlərin yolunu Naxçıvan və İrəvan xanlıqları əvəzinə Qarabağ xanlığına yönəltsin, çünki güman edirdilər ki, orada etibarlı və bol ehtiyatlar vardır".

Rus yazıçısının qeyd etdiyi kimi, artıq 1828-ci il martın 9-da "Türkmənçaya yaxın olan müxtəlif kəndlərdən ermənilər Qarabağa hərəkət etməyə başladılar".

Keçmiş İrəvan və Naxçıvan xanlıqları torpaqlarında qondarma "Erməni vilayəti" yaradıldı. Rusiyaya birləşdirilənədək bu ərazidə üç şəhər (İrəvan, Naxçıvan və Ordubad) və 1.111 kənd vardı. Rusiyanın işğalı zamanı bu kəndlərin sadəcə 752-si məskun kənd olmuşdu. Məskunlaşdırılmış kəndlərdən 521-i İrəvan əyalətində, 179-u Naxçıvan əyalətində, 6 kənd isə Ordubad dairəsində idi. Rusiya-İran müharibəsi zamanı İrəvan əyalətində 310 kənd, Naxçıvan əyalətində 43 kənd, Ordubad dairəsində isə 6 kənd olmaq üzrə cəmi 359 kənd boş qalmış və dağılmışdı.

Bu kitabda qeyd olunan dağıdılmış kəndlərin adlarından məlum olur ki, onların hamısı Azərbaycan türklərinə mənsub olmuşlar. Bu kitabın maraq doğuran cəhətlərindən biri müəllifin "Erməni vilayəti"nin erməni əhalisini köç etdirməyə qədər burada yaşayanlar və ruslar tərəfindən bu yerlərə köç etdirilənlər olaraq iki qismə bölməsidir. İ.Şopen bütün "Erməni vilayətində" köç etdirilməyə qədər 4.428 erməni ailəsinin (25.151 nəfər) olduğunu, bunlardan da 3.498 ailənin (20.073 nəfər) İrəvan əyalətində, 530 ailənin (2.690 nəfər) Naxçıvan əyalətində, 400 ailənin (2.388 nəfər) isə Ordubad dairəsində məskunlaşdığını yazır.

İran ərazisindən gələn ermənilər İrəvan xanlığı ərazisində aborigen əhalidən (Azərbaycan türklərindən) torpaq sahələrini satın alaraq yeni-yeni erməni kəndlərinin əsasını qoyurdular. Erməni mənbələrinin qeyd etdiyinə görə, hələ 1431-ci ildə İrəvan hakimi Əmir Rüstəm Vacarşabad, Əştərək, Batrinc, Noraqavit, Aqunatun, Kirəcli və Muğni kəndlərini Maku ermənisi Qriqora satmışdı. Bu yolla ermənilər XIX əsrin əvvəllərində 60-dan artıq kəndə sahib olmuşdular.

Bir çox xarici müəlliflər belə bir qənaətə gəlmişlər ki, XIX əsr boyu Qafqazda, xüsusilə də Azərbaycanda məskunlaşmış ermənilər yerli xalqlar arasında nə hörmət, nə də şöhrət qazana bilmişdilər. Ermənilərin vəziyyətini qələmə alan Veliçko yazırdı ki, "Qafqazda sosial-iqtisadi məsələlərlə tayfa məsələləri üst-üstə düşür: burjuaziya, süstlüyü və laqeydliyilə erməni parazitizminə meydan açmış bir neçə şərq dövlətinin timsalından göründüyü kimi, yerli əhali üçün sosial, dövlət üçün siyasi təhlükə yaradan ermənilərdən ibarətdir".

Qafqazda yaşayan xalqlar gəlmə ermənilərə o qədər də etibar etmirdilər. Xüsusilə də azərbaycanlı əhali rus məmurlarının hər yerdə himayə etdiyi ermənilərin özbaşınalıqlarına dözə bilmirdilər. Bütövlükdə müsəlman türklərin və ümumiyyətlə, regiondakı qeyri-ermənilərin rus hakimiyyətinə qarşı nifrətlərinin kökündə bu amil də dururdu. Bu cəhəti çox incəliklə sezən rus knyazı, filosof N.S.Trubetskoy "Qafqaz xalqları haqqında" adlı məqaləsində ermənilərin törətdikləri əməllərin çar hakimiyyətinə üzü qaralıq gətirməsini belə qələmə almışdı: "Ermənilərlə həmişə asanlıqla dil tapmaq olar. Ancaq ermənilərə arxalanmaq səhv olardı. İqtisadi cəhətdən güclü olan, Zaqafqaziyanın bütün iqtisadi həyatına rəhbərliyi öz əllərində cəmləmiş ermənilər eyni zamanda parazit-xalqın və qulun bütün xüsusiyyətlərinə malikdirlər və öz qonşularına nifrətədək gedib çıxan ümumi antipatiyadan istifadə edirlər. Özünü onunla həmrəy etmək bu antipatiyanı və nifrəti öz üzərinə götürmək deməkdir".

Məlum olduğu kimi, XIX əsr boyu müxtəlif fasilələrlə ermənilərin İran və Türkiyə ərazilərindən Qafqaza, xüsusilə də Azərbaycana köçürülməsi prosesi davam etmişdi. Şavrov qeyd edirdi ki, 1877-1878-ci illər rus-türk müharibəsindən sonra Zaqafqaziyaya daha 85 min erməni köçürüldü.

Müəllif daha sonra qeyd edirdi ki, Türkiyədəki erməni çaxnaşmaları zamanı, 1893-1894-cü illərdə ermənilərin köçürülməsi daha geniş miqyas aldı. 1893-1897-ci illər ərzində artıq Zaqafqaziya regionuna 90 min erməni köçkünü gəlmişdi.

Qeyd edək ki, hələ 1828-ci ildən etibarən Osmanlı ərazilərindən Rusiya imperiyasına ermənilərin axınları davam etmişdi. Belə ki, amerikalı ermənişünas Səmyuel A.Uimzin yazdığına görə, "Rusiya 1828, 1854 və 1877-ci illərdə Osmanlı dövləti ilə müharibələr aparmışdı. Ruslar hər dəfə geri çəkilərkən müsəlmanlara qarşı törətdikləri qanlı hadisələrin nəticələrindən qorxuya düşən ermənilər ruslarla birlikdə Türkiyədən qaçmışlar". Bu dövrdə çarizmin siyasəti nəticəsində Qafqazdan və digər ərazilərdən müsəlman əhalisinin sistemli şəkildə Osmanlı dövlətinə qovulması prosesi də baş vermişdi. Məhz bu prosesi arxiv sənədləri əsasında diqqətlə izləmiş Səmyuel yazırdı ki, "1827-1878-ci illər ərzində ruslar 1,3 milyon müsəlmanı zor gücünə köçürmüşdülər".

1897-ci ildə Rusiya imperiyası ərazisində əhalinin siyahıyaalınması keçirildi. Çarizmin 1805-1897-ci illər ərzində, yəni bir əsrə yaxın apardığı miqrasiya siyasəti nəticəsində, bütün qəzalara erməni mühacirlərinin gəlmələrinə baxmayaraq, azərbaycanlılardan olan köklü zadəganların sayı yüksək olaraq qalırdı. Belə ki, 1897-ci ildə Zəngəzur qəzasında və Göycə mənteqəsində 4.911 nəfər azərbaycanlı mülkədar və bunun müqabilində 904 erməni mülkədarı vardı. Şuşa qəzası və Şuşa şəhəri üzrə isə bu rəqəmlər müvafiq olaraq 5.033 azərbaycanlı və 1.987 erməni mülkədarı idi.

Xarici müəlliflərin təsdiq etdiyi kimi, "1907-1912-ci illər arasında ruslar daha 500 mindən çox ermənini İrandan və Osmanlı torpaqlarından çıxararaq Qars, İrəvan və Yelizavetpol əyalətlərinə köçmələrinə yardımçı oldu".

Yuxarıdakı rəqəmlər göstərir ki, azərbaycanlılar hətta Qarabağın Rusiyaya birləşdirilməsindən və ermənilərin bu regiona kütləvi mühacirəti başlanandan 90 il sonra da Qarabağ torpaqlarının ən iri sahibkarları olaraq qalırdılar.

XX əsrin əvvəllərində erməni etnosu ilə Azərbaycan xalqı arasındakı münasibətlər tarixində yeni mərhələ başlandı. Qarabağda etnik cəhətdən azərbaycanlılardan təmizlənmiş ərazi yaratmağa çalışan ermənilər çar hakimiyyətinə arxalanaraq terror və deportasiya siyasətini həyata keçirməyə başladılar.

Veliçko yazırdı ki, Türkiyəli yarımvəhşi ermənilərin bandit dəstələri bizim (Rusiyanın - A.M.) pis qorunan Asiya sərhədlərimizi keçirdilər və müxtəlif erməni tuzları tərəfindən, müflisləşmiş gürcü knyazlarından və tatar (azərbaycanlı - A.M.) ağalarından satın alınmış torpaqlarda yerləşirdilər, yaxud da, muzdlu qatillərin və hər cür cinayətkarların sıralarını doldurraraq Zaqafqaziyanın şəhərlərini və kəndlərini dolaşırdılar".

İrəvanda çıxan "Novoe vremya" qəzetinin müxbiri Qriqoryev bununla əlaqədar olaraq 1903-cü ildə bildirirdi ki, ermənilərin törətdikləri cinayətlərin 80 faizi, "muzdlu qatillərin geniş dəstəsinə qoşulmuş" məhz türkiyəli ermənilər tərəfindən törədilmişdir, onlar həmçinin "Milli məqsədlər" naminə əhalidən zorla pul toplanılmasında fəal iştirak edirdilər".

1905-ci ilin fevralından başlayaraq İrəvan və Qarabağ bölgələrində erməni daşnaklarının dinc azərbaycanlılara qarşı başladıqları soyqırım siyasəti digər ərazilərə də yayıldı. Bakıda erməni-azərbaycanlı toqquşmalarının qızğın çağında onlarca müsəlman ailəsi erməni uşaqlarını və ailələrini gizlədib xilas etmişdilər. Ermənilər isə harada müsəlman görürdülərsə, atəş açaraq onları qətlə yetirirdilər. Azğınlaşmış erməni daşnakları çar hakimiyyətindən belə çəkinmirdilər. Nəticədə 1905-ci ilin mayında Bakı qubernatoru knyaz Nakaşidze erməni terrorçuları tərəfindən qətlə yetirildi.

Gəncə quberniyasının Şuşa qəzasında yerləşən Vəng kəndinin 300-dən çox erməni yaraqlısı yaxınlıqdan keçən azərbaycanlı karvanına basqın etdilər. Ermənilər tacirləri qətlə yetirdilər və onların əmlakını dağıtdılar. Azərbaycanlılar yaşayan məhəllələrə od vuruldu. Silah və sursatı ələ keçirərək kazarmalardan qaçan erməni əsgərləri də yaraqlılara qoşuldular. Qanlı hadisələr qorxulu hal almışdı. Daşnakların məqsədi yerli müsəlman əhalisini qorxudaraq onları Şuşa və Qarabağın dağlıq hissəsinin digər ərazilərini tərk etməyə məcbur etmək idi.

İrəvan əyalətində də silahlı daşnaklar Azərbaycan kəndlərinə basqınlar edirdilər. 1905-ci ilin iyulunda İrəvan şəhərinin yaxınlığındakı Məngüş kəndini mühasirə edərək azərbaycanlıları tamamilə qırdılar. Azğın düşmənə müqavimət göstərən və öz kəndini müdafiə edən Novruz adlı 80 yaşlı bir kəndlinin başını kənd keşişi Ayrapet özü şəxsən xəncərlə kəsərək əvvəlcə Aleksandropola, sonra isə Bakıya göndərmişdi. Nümayiş etdirmək üçün başın üstünə qoyulmuş məktubda yazılmışdı ki, "Bu, 150 min müsəlmanın başıdı".

Daşnaklar İrəvan ətrafındakı daha 12 kəndi yandırıb dağıtdılar. Nəticədə 1905-1906-cı illərdə təkcə İrəvan quberniyasında 10 mindən çox azərbaycanlı soyqırımına məruz qaldı. Bu zaman İrəvan və Yelizavetpol (Gəncə) quberniyalarında 200-dən çox müsəlman kəndi məhv edilmiş, əhalisi isə qırılmışdı. Erməni quldurları Təkiyə kəndində axund Məhəmməd Əli Mirzənin imarətinə od vurub 200 cild Quran və digər dini kitabları yandırmışdılar.

(davamı növbəti saylarımızda)

Atamoğlan MƏMMƏDLİ.